Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqları"

*İsa Həbibbəyli - 70*

# Milli ədəbi-nəzəri düşüncənin öncülü

## Yaxud akademik İsa Həbibbəyli və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

**(Beşinci yazı)**

*Çağdaş nəzəri-estetik fikrimizin korifeyi, akademik İsa Həbibbəylinin 50 illik zəngin və çoxşaxəli yaradıcılığını bir neçə mərhələyə bölmək olar. 70-80-ci illəri özündə ehtiva edən birinci mərhələnin özülündə həmin dövrün qabaqcıl və demokratik təmayüllü ədəbi-nəzəri axtarışlarının üzvi hissəsini təşkil edən romantizmşünaslıq sahəsindəki tədqiqatlar dayanır. Özünəqədərki ədəbiyyatşünaslığın və ustad ədəbiyyatşünasların XX yüzil ədəbiyyatı, xüsusən, romantik poeziya və dramaturgiya sahəsindəki araşdırmalarını davam və inkişaf etdirən gənc, döyüşkən alim, nəhayət, bu sahədəki elmi axtarış və yeniliklərini ümumiləşdirib, ədəbi ictimaiyyətə təqdim edir. 80-ci illərin birinci yarısında işıq üzü görən "Romantik lirikanın imkanları" kitabı cavan və romantizmşünas alimin sabiq Sovet İttifaqı imperiyasının hələ də kəsərdən düşmədiyi bir vaxtda, Hadiyə, Cavidə, Cavada və romantizmə düşmənçilikdən əl çəkilmədiyi, qadağalar və qətliamların hələ də köhnəlmədiyi bir zamanda cəmiyyətimizə, millətimizə, elm dünyasına ilk və sanballı töhfəsi idi. Zatən, yaxın gələcəyin böyük Mirzə Cəlilşünası və mahir realizmşünası şəhid şairlərimiz Hadi, Cavid və Cavad romantizminin mürəkkəb rəmzlər, bədii-fəlsəfi metaforalar və işarələr dünyasından realizmin əzəmətli və sərt həqiqətlər yoluna çıxmağı hədəfə almışdı. Və Azərbaycan elmində akademik İsa Həbibbəyli epoxasının təməl daşları qoyulurdu...*





Akademik İsa Həbibbəylinin Nizami Gəncəvi adına Ədəbiyyat institutuna rəhbərlik etdiyi dövr onun ictimai fəaliyyətində və elmi yaradıcılığında son dərəcə məsul və zəngin, xüsusi bir mərhələdir. Məlumdur ki, müstəqil Azərbaycanın elm və mədəniyyət siyasətində beynəlxalq əlaqələrin inkişafı və dərinləşməsi həmişə prioritet təmayüllərdən biri olub. Xüsusən, son 5-6 ildə Azərbaycan alimlərinin və elminin xarici ölkələrdəki uğurları böyük maraq doğurur. Bu cəhətdən Nizami Gəncəvi adına Ədəbiyyat institutunun direktoru, akademik İsa Həbibbəylinin rəhbərliyi və təşəbbüsü ilə həyata keçirilən bir-birindən maraqlı və gərəkli elmi-mədəni layihələr fikrimizi təsdiq etməkdədir. Məsələn, dahi Azərbaycan klassikləri Nizami Gəncəvi və Cəlil Məmmədquluzadə irsinin dünya ölkələrində, xüsusən, Yaxın Şərq və qonşu məmləkətlərdə təbliği, əsərlərinin və kitablarının nəşri bu layihələrin əhəmiyyətini vurğulamaqdadır. Böyük sənətkarlarımızın irsinin Rusiya, Misir Ərəb Respublikası, Pakistan, Türkiyə, İran, Özbəkistan, Macarıstan, Gürcüstan və Baltikyanı kimi böyük ölkələrdə çap olunması elmimizin və mədəniyyətimizin son illərdəki mühüm uğurlarından biri kimi dəyərləndirilə bilər. O cümlədən, Mirzə Cəlil yaradıcılığının qardaş türk respublikalarında, böyük Azərbaycan yazıçısını yüz ildən bəri qəlbində sevib və əzizləyən qədirbilən oxucular arasında da təbliği və yayılması həmin möhtəşəm layihənin tərkib hissəsinə daxildir. Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin qardaş Özbəkistanda nəşr olunmuş "Poçt qutusu" (2019) adlı "Seçilmiş əsərlər" bu böyük və qutlu işin bilavasitə davamıdır.

Akademik İsa Həbibbəylinin uğurla rəhbərlik etdiyi Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun tarixi də, təbii ki, elə vətənimiz tarixinin özü kimi mürəkkəbdir, həyatda olduğu kimi, elm dünyasında da eniş və yoxuşlar, yüksəliş və çöküşlər periodik olaraq bir-birini əvəz edir. 60-cı illərin ortalarından, xüsusən, 1969-cu ildən etibarən ölkəmizin və ədəbi-mədəni həyatımızın inkişafı tarixində yeni era başlayır. Ümummilli liderimiz Heydər Əliyevin həmin dövrdə respublikamıza rəhbərlik etməyə başlaması millətimiz və məmləkətimizin tarixi tərəqqi yolunu yeni zirvələrə qaldırdı. Azərbaycan elminin, mədəniyyətinin və iqtisadiyyatının çiçəklənmə dövrü kimi tarixə daxil olan Heydər Əliyev epoxası çağdaş yüksəlişimizin də əsas bünövrəsini təşkil etməkdədir. Məhz 60-80-ci illərin ümummilli oyanış və yüksəliş əhval-ruhiyyəsi, ümumilikdə, Azərbaycan Milli Elmlər Akademiyasının, xüsusən isə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun milli-tarixi taleyində həlledici əhəmiyyətə malik oldu. XX yüzillikdəki, xüsusən, son yarım əsrdəki tarixi xidmətlərinə və uğurlarına görə, Ədəbiyyat İnstitutu bilavasitə Heydər Əliyev epoxasına və onun ölkəni həm daxildən, həm də xaricdən dəyişən, yeniləşdirən möhtəşəm siyasətinə borcludur. Azərbaycan xalqının elmi-mədəni inkişafında və elmi-estetik dünyagörüşünün formalaşmasında Ədəbiyyat İnstitutunun, xüsusən, müstəqillik illərindəki xidmətləri təqdirə layiqdir.

Akademik İsa Həbibbəyli mərhələsi öz inkişaf sürətinə və səmərəliliyinə görə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun inkişaf tarixində özünəməxsus bir dövrdür. Doğrudur, Ədəbiyyat İnstitutunun keçdiyi bütün tarixi inkişaf dövrləri və mərhələləri bizim üçün çox qiymətlidir. Amma bu gün bu elm məbədinin tərcümeyi-halında və fəaliyyət dinamikasında təkcə bir onilliyin deyil, hətta hər bir ilin, ayın və günün də öz tarixi və izi mövcuddur. Xüsusən, Ədəbiyyat İnstitutu alimlərinin yaşayıb-yaratdığı son 6 ili heç bir dövrlə müqayisə etmək mümkün deyildir. Əgər institut tarixində istiqlal dövrü başlanarkən necə bir çoşğun yüksəliş mövcud idisə, biz həmin mənəvi və yaradıcı ruh yüksəkliyini sanki yenidən yaşamaqdayıq. Məsələ bundadır ki, son 6 il ərzində institut kollektivinin qazandığı nailiyyətləri, onun bütün Sovet dövründə imza atdığı müvəffəqiyyətlərlə müqayisə etmək olar. Belə ki, akademik İsa Həbibbəylinin yaratdığı və bütün institut kollektivinə sirayət etmiş yaradıcılıq sürəti nəinki başqaları, hətta bizim özümüz üçün də heyrətamizdir. İndi bir il ərzində bizim institutumuzda, orta hesabla 150-yə yaxın kitab nəşr olunur. Alimlərimizin il ərzində yazdığı məqalələrin sayı isə 1600-dən çoxdur. Bizim uğurlarımıza və göstəricilərimizə ürəkdən sevinən dostlarımızın, xeyirxahlarımızın etiraf etdiyi kimi, bu gün Ədəbiyyat İnstitutunda 3 gün ərzində bir kitab ərsəyə gəlir, 1 gün ərzində isə 3 məqalə yazılır.

Akademik İsa Həbibbəylinin təşəbbüsü və iradəsi ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda yeni struktur bölmələr: Nizamişünaslıq, Ədəbi tənqid, Mühacirət ədəbiyyatı, Mətbuat tarixi və publisistika, Erkən yeni dövr Azərbaycan ədəbiyyatı, Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbələri, Füzulişünaslıq sektoru yaradılmışdır və artıq hər şöbənin elmi nailiyyətləri vardır.

Hazırda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Azərbaycan ədəbiyyatı tarixinin çoxcildlikləri hazırlanıb nəşr edilir. "Mirzə Fətəli Axundzadə" və "Molla Nəsrəddin" ensiklopediyaları Ədəbiyyat İnstitutunun tədqiqatları sırasındadır. Bu gün Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu dünyanın çoxsaylı ölkələri ilə geniş əlaqələr yaratmış, müqavilələr imzalamışdır. Ədəbiyyat İnstitutu dünyada ədəbiyyatşünaslıq elminin əsas mərkəzlərindən biri kimi tanınır.

Akademik İsa Həbibbəylinin elm siyasətində, yuxarıda söylədiklərimizdən çıxış edərək, əminliklə vurğulaya bilərik ki, beynəlxalq əlaqələrin genişlənməsi və dərinləşməsi prioritet istiqamətlərdən biridir. Onun rəhbərliyi dövründə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun xarici ölkələrlə qarşılıqlı elmi-mədəni əlaqələri daha da inkişaf etmiş, yenidən qurulmuş və yeni açılmış bir sıra elmi şöbələr məhz bu həmkarlığın səmərələri və bazası müstəvisində formalaşdırılmışdır. Avropa, Asiya ölkələrinin səfirləri ilə Ədəbiyyat İnstitutunda keçirilən görüşlər, institut əməkdaşlarının həmin ölkələrə elmi-xidməti səfərləri kollektivin yaradıcılıq potensialını daha da artırmışdır. Görkəmli alimin Misir Ərəb Respublikası, Türkiyə, İran, Pakistan, Rusiya, Hindistan, Çin, Cənubi Koreya, Monqolustan və başqa ölkələrdəki elm və mədəniyyət nümayəndələri ilə keçirdiyi görüşlər Azərbaycanın mədəni-humanitar imkanlarına ciddi, eyni zamanda, işgüzar münasibətin formalaşmasına səbəb olmuşdur. Xüsusən, klassik mədəniyyətimiz və ədəbiyyatımızın nümayəndələrinin, Nizami, Nəsimi, Füzuli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə və başqa ədəbi korifeylərimizin xarici ölkələrdə nəşri və təbliği sahəsində görülən işlər qürurvericidir. Bu elmi-mədəni layihələr müstəqil Azərbaycanın beynəlxalq arenadakı mövqeyi və fəal xarici siyasəti ilə tam mənada üst-üstə düşür, Vətənimizin sivil və multikultural obrazını, maddi və mənəvi üstünlüyünü, sözün əsl mənasında, zənginliyini və müasir uğurlarını nümayiş etdirir.

Akademik İsa Həbibbəyli Milli Elmlər Akademiyasının Humanitar və İctimai Elmlər Bölmələrinə, həmçinin Ədəbiyyat İnstitutuna böyük bacarıqla rəhbərlik edir.

Bütün bunlar müstəqillik eyforiyasının və inamının Azərbaycanın ədəbi-mədəni mühitindəki qüdrətli əks-sədasıdır. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun akademik İsa Həbibbəylinin rəhbərliyi altında milli ideal və məfkurəni formalaşdıran fundamental elmi fəaliyyəti milli istiqlalımızın və vətənimiz müstəqilliyinin əsas özülü və bünövrəsi kimi çıxış etməsi, ümumxalq mübarizəsinə böyük töhfələr verməsi, bizim tarixi zəfərimizdir.

**Yaşar Qasımbəyli,
filologiya elmləri doktoru,
professor**

**Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.**